QANUN № 02 (352), 2024, s. 15-22

**Zeynalova-Sultanova Natəvan Azər qızı,**
Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin doktorantı
E-mail: zeynalova.natevan@mail.ru

**UOT 341**
**DOI: 10.30546/2218-9130. 02.352.2024.06**

# BEYNƏLXALQ MİQRASİYA VƏ İNSAN HÜQUQLARI PROBLEMİ

***Açar sözlər:*** *miqrasiya, miqrantlar, əcnəbi, vətəndaşlıq, beynəlxalq hüquq, insan hüquqları.*

***Ключевые слова:*** *миграция, мигранты, иностранец, гражданство, международное право, права человека.*

***Keywords:*** *migration, migrants, foreigners, citizenship, international law, human rights.*

İnsan hüquqlarının müdafiəsi kontekstində beynəlxalq miqrasiyanın hüquqi tənzimlənməsi müasir beynəlxalq miqrasiya hüququnun həm nəzəri, həm də praktiki məsələlərindəndir. Ona görə də bu mövzunun müasir beynəlxalq hüququn həm insan hüquqları sahəsi, həm də beynəlxalq miqrasiya hüququ alt sahəsi çərçivəsində təhlil edilməsini məqsədəmüvafiq hesab edirik.

Professor N. N. Zinçenko yazır ki, beynəlxalq hüququn yeni alt sahəsi olan beynəlxalq miqrasiya hüququnun formalaşması müasir şəraitdə əhalinin xarici miqrasiyası ilə bağlı beynəlxalq vəziyyətin inkişafından, habelə beynəlxalq hüquq elminin vəziyyətindən, onun sahələri, institutları, prinsipləri və standartları haqqında baxış və konseptual fikirlərdən asılıdır [5, s. 10]. Bu mənada hesab edirik ki, beynəlxalq miqrasiya məsələlərinin inkişafı beynəlxalq hüququn müstəqil sahəsi olan insan hüquqlarının inkişafı ilə sıx bağlıdır. Professor Ə.Əliyevin də yazdığı kimi, əhali və miqrasiya problemlərinin, o cümlədən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin statusunun beynəlxalq-hüquqi tənzimlənməsini əsaslandıran əsas amillərdən biri məhz insan hüquqları amilidir. “Bu, bir tərəfdən, dövlətdaxili hüquq normalarının beynəlxalq hüquq normalarına uyğunlaşdırılması ilə bağlıdırsa, digər tərəfdən, beynəlxalq münasibətlərdə beynəlxalq hüququn artan rolu ilə əlaqədardır” [2, s. 484].

Miqrasiya müxtəlif formalarda təzahür edir. Əlbəttə, səbəblərindən asılı olmadan miqrasiya proseslərinin nəticəsi insan amili və insanın hüquq azadlıqları ilə bağlıdır. İnsanların və onların ailələrinin immiqrasiyasından tutmuş, dünyada baş verən silahlı münaqişələrin xaotik nəticələrinə, iqtisadi miqrantların və insan alverinə məruz qalanların qeyri-qanuni hərəkətlərinə qədər miqrasiyanın səbəb və nəticələri də zamanla dəyişə bilər.

Müharibələr və silahlı münaqişələr miqrasiya problemləri ilə bilavasitə bağlıdır. Professor İ.İ. Lukaşuk qeyd edir ki, dövlətlərarası müharibələr və beynəlxalq xarakterli konfliktlər, siyasi təqiblər əhalinin digər ölkələrə kütləvi axınına gətirib çıxarır [6, s. 30]. Bu mənada Azərbaycan, Ermənistanın hərbi təcavüzü və siyasi təqibləri nəticəsində miqrasiya problemi ilə, o cümlədən daxili və xarici miqrasiya ilə azərbaycanlıların Ermənistandan kütləvi qanunsuz deportasiyası ilə ən çox üzləşən və insan hüquqları pozuntularından zərərçəkən dövlətdir.

Hüquq elmləri üzrə fəlsəfə doktoru S. Məcidli hesab edir ki, silahlı münaqişələri doğuran elementlər, dövlət suverenliyinə qəsdlərin mövcudluğu şəraitində insan hüquqlarının səmərəli müdafiəsi qeyri-mümkündür [3, s. 308]. Bu səbəbdən də ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə aparılmış 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabr ayında 24 saat ərzində keçirilmiş antiterror əməliyyatı regionda qanunsuz miqrasiya ilə mübarizə və insan hüquqlarının durumu ilə bağlı mövcud reallığı dəyişmişdir. Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olunmuş, daxili miqrasiyanın tənzimlənməsi öz gücümüzə təmin olunmuşdur. Lakin Ermənistandan olan 1 milyon qaçqın probleminin əsas səbəbkarı olan Ermənistanın bu kütləvi insan hüquqları pozuntusuna görə məsuliyyət məsələsi hələ də açıq qalmaqdadır. Hesab edirik ki, qanunsuz kütləvi miqrasiyaya səbəb olan Ermənistanın bu kobud insan hüquqları pozuntusu da beynəlxalq hüquqi qiymətini alacaqdır. Fikrimizcə, bunun ən effektiv beynəlxalq hüquqi yolu Avropa İnsan Hüquqları Məhkəməsi vasitəsilə həll modelidir.

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissar Ofisinin məlumatına əsasən təxminən 281 milyon insan, dünya əhalisinin təqribən 3,6%-i hazırda mənşə ölkələrindən kənarda yaşayır və onların bir çoxunun miqrasiyası müxtəlif dərəcələrdə məcburiyyətlə xarakterizə olunur. Getdikcə artan miqrantlar müxtəlif səbəblərdən evlərini tərk etməyə məcbur olurlar. Miqrantlara qarşı insan hüquqları pozuntularına əsassız həbs, işgəncə və ya lazımi prosessul hüquqların olmaması kimi mülki və siyasi hüquqların, habelə sağlamlıq, mənzil və ya təhsil hüquqları kimi iqtisadi, sosial və mədəni hüquqların rədd edilməsi aid edilə bilər. Miqrantların hüquqlarının inkarı çox vaxt ayrı-seçkilik qanunları və qərəz və ya ksenofobiyanın dərin köklü münasibətləri ilə sıx bağlı olur [16].

Britaniya Beynəlxalq və Müqayisəli Hüquq İnstitutunun direktoru, prof. Robert McCorquodale hesab edir ki, miqrasiyanın dərin sosial və iqtisadi təsirləri olsa da, bu prosesin hüquqi tənzimlənməsi ümidlə, intizarla və həmişə qorxu içində ərazi sərhədlərini keçən dünyanın ən həssas insanların bəzilərinə əhəmiyyətli təsir göstərir [22, s. 5]. Bu səbəbdən də bütövlükdə miqrasiya prosesləri və miqrantlar daim insan hüquqlarının müdafiəsinin təsir dairəsində olur.

Qeyd etmək lazımdır ki, beynəlxalq hüququn ilkin inkişaf dövrlərində miqrantların hüquqlarının müdafiəsi, onların elementar hüquq və azadlıqlarının real təminatı aktual olmamışdır. Yəni miqrantların beynəlxalq hüquq müstəvisində kifayət edə biləcək səviyyədə nə yeri, nə də hüquqları var idi. Bu səbəbdən də hər hansı şəxsin xaricdə hüquqları pozulurdusa, onun müdafiəsi yalnız fiksiya vasitəsi ilə baş tuturdu. Bu zaman əlbəttə, miqrantın hüquqları nə onun məxsus olduğu dövlət, nə də hər hansı beynəlxalq sistem çərçivəsində müdafiə olunmurdu.

Bir çox hallarda miqrantların istər qanuni, istərsə də qeyri-qanuni olaraq beynəlxalq hüquqa əsasən istifadə etdikləri hüquqlar ilə yaşadıqları, işlədikləri və səyahət etdikləri ölkələrdə üzləşdikləri çətinliklər arasında uçurum mövcud olur. Hökumətlər tərəfindən razılaşdırılmış prinsiplər və fərdi həyat reallığı arasındakı bu boşluq miqrantların ləyaqət və insan hüquqları baxımından həssaslığını önə çəkir [20]. Ona görə də XX əsrin ortalarından başlayaraq müasir beynəlxalq hüquq miqrantların insan hüquqları problemini normativ müstəviyə daşımağa başlamışdır.

Miqrantların insan hüquqları ilə bağlı tendensiya beynəlxalq hüquqda ilk dəfə 1948-ci il İnsan hüquqları haqqında Universal Bəyannamə ilə ortaya qoyulmuşdur. Beynəlxalq insan hüquqları rejiminin əsas prinsipi insan hüquqlarının universal, bölünməz, ayrılmaz və bir-birindən asılı olmasıdır. İnsan Hüquqları Bəyannaməsində

təsbit edildiyi kimi, miqrantlar ilk növbədə insandır. Bəyannamənin 2-ci maddəsində qeyd olunan “hər kəs” ifadəsinin təsir dairəsinə eyni zamanda miqrantlar da daxil edilir: “Hər kəs irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti, anadangəlmə mənsubiyyəti və digər vəziyyətlərinə görə heç bir fərq qoyulmadan hazırkı Bəyannamədə bəyan edilən bütün hüquqlara və bütün azadlıqlara malik olmalıdır. Bundan əlavə, insanın mənsub olduğu ölkənin və ya ərazinin siyasi, hüquqi və beynəlxalq statusuna, bu ərazinin müstəqil, asılı, özünü idarə etməyən və ya suverenliyi hər hansı digər şəkildə məhdudlaşdıran ərazi olub-olmamasından asılı olmayaraq, heç bir fərq qoyulmamalıdır” [23]. Universallıq prinsipi o deməkdir ki, mənşə, tranzit və təyinat dövlətləri hamısı miqrantların insan hüquqlarının qorunmasına cavabdehdir.

Qaçqınlar və digər miqrantlar da daxil olmaqla insan hüquqları, qaçqınların müdafiəsi, əmək miqrasiyası, insan qaçaqmalçılığı və ya insan alveri ilə bağlı geniş spektrli BMT konvensiyaları ilə təmin edilir [9, s. 7-20]. Bunlara BƏT-in 1949-cu il tarixli 97 nömrəli Miqrant işçilər Konvensiyası, Müharibə zamanı mülki şəxslərin müdafiəsi haqqında 1949-cu il Konvensiyası, Vətəndaşlığı olmayan şəxslərin statusu ilə bağlı 1954-cü il Konvensiya, Köləliyin, qul alverinin ləğvi haqqında Əlavə Konvensiya daxildir. Əlavə olaraq 1956-cı il quldarlığa bənzər qurumlar və adətlər, 1957-ci il Məcburi Əmək Konvensiyasının ləğvi, 1961-ci il Vətəndaşsızlığın Azaldılması Konvensiyası, 1951-ci il Qaçqınlar Konvensiyası və 1967-ci il Qaçqınların Statusuna dair Protokol, 1965-ci il İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Konvensiya, 1974-cü il fövqəladə vəziyyətlərdə və silahlı münaqişə zamanı qadınların və uşaqların müdafiəsi haqqında Bəyannamə, Miqrasiya sui-istifadəsi və hüquq bərabərliyi haqqında BƏT-in 143 saylı Konvensiyası, Bütün Əməkçi Miqrantların və Onların Ailə Üzvlərinin Hüquqlarının Müdafiəsi haqqında Konvensiya, BƏT-in 97 saylı Miqrant İşçi Konvensiyası (1949-cu ildə yenidən işlənmiş) və s. [19].

Beynəlxalq miqrantlar heterogen qrupdur. Yüksək ixtisaslı mütəxəssislərdən tutmuş, qeyri-qanuni yolla sərhədləri aşaraq işləmək üçün gələnlər də bura daxildir. Bir çox situasiyalarda miqrantlar yaşadıqları ölkənin iqtisadiyyatına və cəmiyyətinə inteqrasiya olunur. Onların hüquqlarına hörmət edilir, iqtisadi, sosial və mədəni baxımdan töhfə vermək imkanlarına çox az maneələr var. Digər hallarda isə miqrantların hüquqlarına daha az hörmət edilir. Təhlükəsiz və məhsuldar həyat yaşamaq üçün onlar insan hüquqlarının müdafiəsinə ehtiyac duyurlar və həqiqətən də bu hüquqlara malikdirlər. Çox vaxt bu müdafiəyə ən çox ehtiyacı olan kateqoriya qeyri-qanuni miqrantlardır [15].

Miqrasiya və insan hüquqları probleminə daha real elmi yanaşma beynəlxalq hüquqla qorunan bütün hüquqların ayrı-ayrı miqrant kateqoriyalarına şamil olunmasını şərtləndirir. Bu baxımından ilk növbədə qadın miqrantların, miqrant uşaqların, insan alveri qurbanlarının, miqrant işçilərin, qaçqınların, saxlanılan miqrantların və digər bu kateqoriyadan olan miqrant statusu daşıyan hər kəsin hüquqlarına toxunmaq daha doğru olardı.

Professor A. Q. Habibulin qeyd edir ki, beynəlxalq və milli hüquqda miqrantların ikili kateqoriyaları (dixotomiyaları) mövcuddur. O hesab edir ki, xarici və daxili mühacir və immiqrantlar, qaçqınlar və miqrantlar, qanuni və qeyri-qanuni miqrantlar dixotomik kateqoriyalardır. Digər tərəfdən alim qeyd edir ki, hüquqi kontekstdə müdafiəyə xüsusi ehtiyacı olan miqrant kateqoriyalarının müəyyən edilməsi vacibdir. Bunlara, xüsusən, siyasi qaçqınlar, miqrant uşaqlar, əlil miqrantlar, pensiyaçı miqrantlar, qadın miqrantlar, etnik miqrantlar, dini miqrantlar,

silahlı münaqişələrin qurbanı olan miqrantlar və s. aid edilə bilər [10, s. 32-35].

Əlbəttə, insan hüquqları bütün insanlara istisnasız tətbiq edilən hüquqlardır. İnsanlar onu miqrant və ya qeyri-miqrant, vətəndaş, işçi və ya digər statusa malik olduğuna görə əldə etmirlər. Heç kim sadəcə olaraq milli immiqrasiya qaydalarını pozaraq ölkəyə daxil olduğu və ya orada qaldığı üçün insan hüquqlarından məhrum edilə bilməz. Bu kontekstdə ayrı-seçkilik birmənalı şəkildə qadağan edilir. Heç kim sırf xarici görünüşünə,"xarici" olduğuna və ya qadın və ya kişi olmasına və ya yerli dildə danışmadığına görə bu hüquqlardan məhrum edilə bilməz. Bu prinsip – insan hüquqlarının universallığı prinsipi miqrantlar üçün xüsusi dəyərə malikdir [8, s. 39].

Həm milli, həm də beynəlxalq hüquqla təmin edilən insan hüquqları miqrantların müdafiəsində əsas yer tutur. İmmiqrasiya statusundan asılı olmayaraq bütün şəxslərin əsas hüquqlarına aşağıdakılar daxildir:

1) yaşamaq hüququ, şəxsi azadlıq və təhlükəsizlik hüququ, əsassız həbs və ya həbsdən azad olmaq, təqiblərdən sığınacaq axtarmaq və ondan istifadə etmək hüququ;

2) irqinə, cinsinə, dilinə, dininə, milli və ya sosial mənşəyinə və ya digər mövqeyinə görə ayrı-seçkilikdən azad olmaq hüququ;

3) zorakılıq və istismardan qorunmaq, köləlik və məcburi əmək, eləcə də işgəncədən və qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzadan azad olmaq hüququ;

4) ədalətli məhkəmə araşdırması və zəruri prosessual hüquqi yardım almaq hüququ;

5) iqtisadi, sosial və mədəni müdafiə hüququ, o cümlədən sağlamlıq hüququ, layiqli həyat, sosial təminat, normal yaşayış şəraiti, təhsil, eləcə də ədalətli və əlverişli iş şəraiti hüquqları;

6) dövlətin qoşulduğu beynəlxalq insan hüquqları sənədləri və ənənəvi beynəlxalq hüquqla təmin edilən digər insan hüquqları [4].

Miqrasiya və insan hüquqları kontekstində mühüm elmi və praktiki əhəmiyyət kəsb edən beynəlxalq sənədlərdən biri də 18 dekabr 1990-cı ildə qəbul edilmiş Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının qorunması haqqında Konvensiyadır. Qeyd olunan sənədin 1-ci maddəsinin 2-ci bəndində göstərilir ki, bu Konvensiya əməkçi miqrantlar və ailə üzvlərinin miqrasiyaya hazırlıq, gediş, tranzit və məşğulluq dövlətində qalması və ödənişli fəaliyyətin bütün dövrünü, həmçinin mənşə ölkəsi və ya daimi yaşayış dövlətinə qayıtmasını əhatə edən bütün miqrasiya prosesi zamanı tətbiq edilir [14].

Miqrantların insan hüquqları ilə bağlı mühüm sənədlər BMT Baş Katibi tərəfindən yaradılmış və miqrasiya ilə bağlı BMT-nin müvafiq qurumlarının rəhbərlərini birləşdirən qurumlararası qrup kimi fəaliyyət göstərmiş Qlobal Miqrasiya Qrupu tərəfindən işlənib hazırlanmışdır. Qeyd olunan qurum 2018-ci ildə Baş Katib tərəfindən yeni qurumlararası əlaqələndirmə mexanizmi olan Birləşmiş Millətlər Təşkilatının Miqrasiya Şəbəkəsi ilə əvəz etmişdir [21]. Bu qurum tərəfindən iki əsas sənəd öz praktiki və elmi əhəmiyyətinə görə fərqləndiyi üçün onların üzərində təhlillər aparmağı məqsədəuyğun hesab edirik. Bu sənədlərdən birincisi "Həssas vəziyyətlərdə miqrantların hüquqlarının qorunması üçün prinsiplər və praktiki təlimatlar"dır. Bu prinsiplər və təlimatlar qaçqınların ayrıca hüquqi kateqoriyasını təşkil etməyən, lakin həssas vəziyyətdə olan və buna görə də beynəlxalq insan hüquqları hüququna əsasən müdafiəyə ehtiyacı olan miqrantların insan hüquqlarının vəziyyətinə diqqət yetirir (A/HRC/33/67) [7]. Həmin sənədlə miqrantların insan hüquqlarına dair aşağıdakı 20 mühüm prinsiplər müəyyən edilmişdir: insan hüquqlarının üstünlüyü, ayrı-seçkiliyə yol verməmək, ədalətə çatım, xilasetmə və təcili yardım, sərhəd idarəetməsi, insan hüquqlarına əsaslanan qayıdış, zorakılıq və istismardan qorunma, immiqrasiya həbsinə son

qoyulması, miqrant uşaqlar, miqrant qadınlar və qızlar, sağlamlıq hüququ, adekvat yaşayış səviyyəsi hüququ, əmək hüququ, təhsil hüququ, məlumat almaq hüququ, monitorinq və hesabatlılıq, məlumatların toplanması və qorunması, miqrasiya idarəçiliyi və əməkdaşlıq [20].

İkinci sənəd isə "Beynəlxalq sərhədlərdə insan hüquqlarına dair tövsiyə olunan prinsiplər və təlimatlar"dır. Dövlətlər öz sərhədləri daxilində, lakin insan hüquqları öhdəlikləri kontekstində yurisdiksiyanı həyata keçirmək səlahiyyətinə malikdirlər. Bu sənəd insan hüquqlarının nəzərə alınması ilə sərhəd nəzarətinin həyata keçirilməsində dövlətlərin, beynəlxalq agentliklərin və digər maraqlı tərəflərin işinə rəhbərlik etmək üçün nəzərdə tutulub [7]. Qeyd olunan sənəd üç tövsiyə xarakterli prinsip nəzərdə tutur: 1) İnsan hüquqlarının üstünlüyü prinsipi. Bu prinsipə görə insan hüquqları bütün sərhəd idarəçiliyi tədbirlərinin mərkəzində olmalıdır. 2) Ayrı-seçkiliyə yol verilməməsi prinsipi. Bu prinsipə görə miqrantlar sərhədlərdə ayrı-seçkiliyin hər hansı formasına məruz qalmamalıdırlar. 3) Yardım və zərərdən qorunma prinsipi. Bu prinsipə əsasən, dövlətlər sərhədlərdə bütün miqrantların fərdi vəziyyətini nəzərə almalı və effektiv müdafiəni və ədalətə çıxışı təmin etməlidir [18]. Göründüyü kimi, qeyd olunan prinsiplər bütövlükdə miqarantların əsas hüquq və azadlıqlarının daha səmərəli müdafiəsini, o cümlədən onlara qarşı ayrı-seçkiliyin tətbiq olunmamasını şərtləndirir.

Miqrasiya siyasətlərini yalnız təhlükəsizlik və sərhəd nəzarəti çərçivəsində qurmaq üçün artan qlobal tendensiya var. Bu, qeyri-qanuni miqrantları cinayət məsuliyyətinə cəlb edən və onları cəza xarakterli və çox vaxt adekvat təminatlardan məhrum olan inzibati həbs rejimlərinə məruz qoyan siyasətlərlə daha da ağırlaşır. Həssas miqrantlar aylarla və hətta illərlə immiqrasiya həbsxanalarında sıxlıq və antisanitar şəraitdə saxlanıla bilər. Bununla belə, miqrantlar həm evdə, həm də qəbul edən ölkələrdə iqtisadi artıma və insan inkişafına töhfə verir və mədəni müxtəliflik vasitəsilə cəmiyyətləri zənginləşdirir. Ali Komissar hökumətləri və bütün aidiyyəti şəxsləri "miqrasiyaya insan hüquqları yanaşmasını tətbiq etməyə və miqrantların müsbət töhfələrini tanımağa, qanun və praktikada onların insan hüquqlarını qorumağa və onların qəbul edən cəmiyyətlərə inteqrasiyasını asanlaşdırmağa" çağırır [13].

Bundan əlavə, sənəddə miqarantların insan hüquqlarının müdafiəsinə yönəlmiş və dövlətlər üçün zəruri olan müvafiq təlimatlar da nəzərdə tutulmuşdur. Bunlara aiddir: insan hüquqlarının təşviqi və müdafiəsi, hüquq və siyasət çərçivəsi, insan hüquqları potensialının yaradılması, xilasetmə və müdaxilə zamanı insan hüquqlarının təmin edilməsi, təcili yardım kontekstində insan hüquqları, skrininq və müsahibə, müəyyənləşdirmə və yönləndirmə, həbsdən çəkinmə, insan hüquqlarına əsaslanan geri qaytarma və ya ölkədən çıxarma, əməkdaşlıq və koordinasiya [18]. Qeyd olunan bütün prinsiplər və təlimatlar dövlətlərin beynəlxalq sərhədlərdə bütün miqrantların insan hüquqlarını qorumaq, onlara hörmət etmək və implementasiya öhdəliklərini müəyyən edir.

Onu da qeyd etməliyik ki, son illərdə miqrasiyanın hüquqi tənzimlənməsi və miqrantların hüquq və azadlıqlarının təmin olunması üzrə ölkəmizdə kifayət qədər institutsional və qanunvericilik tədbirləri həyata keçirilmişdir. Azərbaycan bu sahədə konvension öhdəlikərin icrasına xüsusi diqqət yetirməklə, miqrasiya tənzimlənməsi üzrə dövlət proqramları qəbul etmişdir. Azərbaycan Respublikası Prezidentinin 25 iyul 2006-cı il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı (2006-2008-ci illər)" təsdiq edilmişdir. Proqramın əsas məqsədi miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, miqrasiya idarəetmə sisteminin inkişaf etdirilməsi, miqra-

siya proseslərinin tənzimlənməsi və proqnozlaşdırılması, bu sahədə qanunvericiliyin beynəlxalq normalara və müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, qeyri-qanuni miqrasiyanın qarşısının alınması, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi və s. tədbirlərin həyata keçirilməsidir [1].

İnsan hüquqları kontekstində miqrantların hüquqlarının müdafiəsi ilə bağlı bu gün beynəlxalq məhkəmələr müstəvisində daha səmərəli həll modelləri mövcuddur. Bu səbəbdən də fikrimizcə, miqrantların hüquq və azadlıqları ilə bağlı məhkəmə presedentlərinin, xüsusilə Avropa İnsan hüquqları Məhkəməsinin təcrübəsinin təhlili mühüm elmi və praktiki əhəmiyyət kəsb edir.

Avropa Məhkəməsinin Anayo Almaniyaya qarşı işi üzrə qərarında (2011) miqrantın Konvensiyanın 8-ci maddəsi üzrə şəxsi həyat hüququ və ailə həyatı hüququnun pozulduğunu bildirmişdir. Nigeriya vətəndaşı olan ərizəçi F.Anayo 2003-cü ildə miqrant olaraq Almaniyaya gəlmiş və onun Almaniyada sığınacaq verilməsi barədə xahişi rədd edilmişdir. Təxminən 2 il ərzində o, 3 uşaq anası olan ailəli xanım B. ilə münasibətdə olmuş, 2005-ci ildə cənab Anayonu tərk etdikdən sonra xanımın 2 əkiz uşağı anadan olmuşdur. Anayo uşaqların bioloji atası olmuşdur [11]. Bu iş üzrə miqrantların sığınacaq hüququ, şəxsi həyat hüququ, ailə həyatı hüququ, bioloji ata olaraq miqrantın ailə birliyi hüququ, həmin miqrantdan olan uşaqların “öz soyundan xəbər tutmaq hüququ”, habelə dövlətlərin miqrantların qeyd olunan hüquqları ilə bağlı qanunvericiliklərində müvafiq dəyişikliklər etməsi tələbləri öz əksini tapmışdır.

Bundan başqa, Avropa İnsan Hüquqları Məhkəməsi Slivenko Latviyaya qarşı işində (2003) miqrantın Konvesiyanın 8-ci maddəsinin (şəxsi və ailə həyatına hörmət edilməsi hüququ) pozuntusunu baş verdiyi bildirmişdir. Həmçinin Məhkəmə rus əsilli keçmiş Latviya sakinləri olan ərizəçilər Tatyana Slivenko və onun qızı Karina Slivenkonun 14-cü maddənin (ayrı-seçkiliyin qadağan edilməsi), 5-ci maddənin 1-ci bəndinin (azadlıq və təhlükəsizlik hüququ) pozuntusunun baş vermədiyini, 5-ci maddənin 4-cü bəndinə (qanuniliyi məsələsinə məhkəmə tərəfindən tez bir müddətdə baxılması hüququ) əsasən təqdim etdikləri şikayətlərə baxılmasına zərurət olmadığını qət etmişdir [12].

Beləliklə, miqrasiya və insan hüquqları probleminə elmi yanaşmanın yekunu olaraq bir neçə mühüm nəticəni qeyd edə bilərik. Birincisi, beynəlxalq hüququn yeni sahəsi olan insan hüquqları beynəlxalq hüququn yeni alt sahəsi olan beynəlxalq miqrasiya hüququ ilə üzvi sürətdə bağlıdır. İkincisi, beynəlxalq hüquqla qorunan bütün hüquqlar ayrı-ayrı miqrant kateqoriyalarına – qadın miqrantlar, miqrant uşaqlar, insan alveri qurbanları, miqrant işçilər, qaçqınlar və s. miqrant statusu daşıyan hər kəsə şamil edilir. Üçüncüsü, təhlil olunan beynəlxalq sənədlər göstərir ki,  miqrantlara münasibətdə insan hüquqlarının üstünlüyü prinsipi əsas götürülməli, ayrı-seçkiliyə yol verilməməli və miqrantların effektiv müdafiə ilə təmin etməlidir. Dördüncüsü, bu gün beynəlxalq təşkilatların və beynəlxalq məhkəmələrin təcrübəsinin, miqrantların hüquq və azadlıqları ilə bağlı məhkəmə presedentlərinin, xüsusilə Avropa İnsan hüquqları Məhkəməsinin təcrübəsinin təhlili miqrantların hüquqlarının müdafiəsi ilə bağlı mühüm əhəmiyyət kəsb edir. Beşincisi, Ermənistandan olan 1 milyon azərbaycanlı qaçqın probleminin əsas səbəbkarı olan Ermənistanın bu kütləvi insan hüquqları pozuntusuna görə məsuliyyət məsələsi həll edilməlidir. Qanunsuz kütləvi miqrasiyaya səbəb olan Ermənistanın bu kobud insan hüquqları pozuntusuna görə ən effektiv beynəlxalq hüquqi vasitə Avropa İnsan Hüquqları Məhkəməsi vasitəsilə həll modelidir.

**İstifadə edilmiş mənbələr:**


1. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı (2006-2008-ci illər): [Elektron resurs]/URL: https://e-qanun.az/framework/11800

2. Əliyev Ə.İ. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri. Dərslik. Bakı: Bakı Universiteti nəşriyyatı, 2007.

3. Məcidli S. T. Ermənistanın hərbi təcavüzü və Azərbaycanın əks-hücum əməliyyatları (beynəlxalq hüquqi məsələlər). – Bakı: Elm və təhsil, 2021.

4. Группа по проблемам глобальной миграции. Заявление по вопросу о правах человека мигрантов, находящихся на нерегулярном положении. 30 сентября 2010 г.: [Электронный ресурс]/ URL: http://www.globalmigrationgroup.org/sites/default/files/uploads/news/GMG%20Joint%20 Statement%20Adopted%2030%20Sept%202010.pdf.

5. Зинченко Нина Николаевна, Концептуальные основы институциональной теории международного миграционного права. Практические и теоретические вопросы миграционного права. N 4, 2017.

6. Лукашук И.И. Международное право. Особенная часть: учебник. – М.: Волтерс Клувер, 2010. - 544 с.

7. Миграция и права человека: [Электронный ресурс]/ URL: https://www.ohchr.org/ru/migration

8. Миграция и международное право в области прав человека. Практическое руководство, № 6. 2016.

9. Умнова-Конюхова И.А. Миграционное право как отрасль современного права: особенности становления и развития. (Статья) // Социальные и гуманитарные науки. Отечественная и зарубежная литература: ИАЖ. Сер. 4: Государство и право. – 2023. – № 2. – с. 7–20.

10. Хабибулин А.Г., Мурсалимов К.Р. Противодействие незаконной миграции: проблемы безопасности и правообразования // Миграционное право, 2022, № 1.

11. Anayo v. Germany: [Electronic resource] / URL: https://hudoc.echr.coe.int

12. CASE OF SLIVENKO v. LATVIA, (Application no. 48321/99): [Electronic resource] / URL: https://www.refworld.org/pdfid/402b5b034.pdf

13. Information note: Protect the human rights of all migrants: [Electronic resource] / URL: https://www.ohchr.org/sites/default/files/Documents/Press/MigrationInfonote27072010.pdf

14. International Convention on the Protection of the Rights of All Migrant Workers and Members of Their Families, Adopted by General Assembly resolution 45/158 of 18 December 1990: [Electronic resource] / URL: https://www.ohchr.org/sites/default/files/cmw.pdf

15. International Migration and Human Rights: challenges and opportunities on the threshold of the 60th anniversary of the Universal Declaration of Human Rights: [Electronic resource] / URL:https://digitallibrary.un.org/record/642516

16. OHCHR and migration: [Electronic resource] / URL: https://www.ohchr.org/en/migration

17. Principles and Guidelines, supported by practical guidance, on the human rights protection of migrants in vulnerable situations: [Electronic resource] / URL: https://www.ohchr.org/sites/default/files/PrinciplesAndGuidelines.pdf

18. Recommended Principles and Guidelines on Human Rights at International Borders: [Electronic resource] / URL: https://www.ohchr.org/sites/default/files/OHCHR_Recommended_Principles_Guidelines.pdf

19. Refugees and migrants in times of COVID-19: mapping trends of public health and migration policies and practices / World Health Organization. – Geneva, 2021.

20. Stefanie Grant and Harrison Grant, International migration and human rights: [Electronic resource] / URL: https://www.iom.int/sites/g/files/tmzbdl486/files/jahia/webdav/site/myjahiasite/shared/shared/mainsite/policy_and_research/gcim/tp/TP7.pdf

21. The Global Migration Group: [Electronic resource] / URL: https://www.ohchr.org/en/migration/global-migration-group

22. The Rule of Law and Migration: Some General Themes, Professor Robert McCorquodale, Director, British Institute of International and Comparative Law, London, Asilah, Morocco, 21 July 2010.

23. Universal Declaration of Human Rights: [Electronic resource] / URL: https://www.un.org/en/about-us/universal-declaration-of-human-rights

**Зейналова-Султанова Натаван Азер гызы**

**МЕЖДУНАРОДНАЯ МИГРАЦИЯ И ПРОБЛЕМА ПРАВ ЧЕЛОВЕКА**

**РЕЗЮМЕ**

В статье анализируется проблема миграции и прав человека во взаимосвязи друг с другом. В анализе рассматриваются права мигрантов. Определяется их вера в использование механизмов защиты прав мигрантов на международном уровне. Для этого анализируются существующие международно-правовые документы. При этом анализируется опыт Европейского суда по правам человека. Определены возможности воздействия международного опыта в этой области применительно к Азербайджанской Республике.

**Zeynalova-Sultanova Natavan Azer**

**INTERNATİONAL MİGRATİON AND HUMAN RİGHTS PROBLEM**

**SUMMARY**

The article analyzes the problem of migration and human rights in relation to each other. The analysis examines the rights of migrants. Their faith in the use of mechanisms for the protection of the rights of migrants at the international level is determined. For this purpose, existing international legal documents are analyzed. At the same time, the experience of the European Court of Human Rights is analyzed. The impact opportunities of international experience in this area in relation to the Republic of Azerbaijan are determined.

**Redaksiyaya daxilolma tarixi: 25.02.2024**
**Təkrar işlənməyə göndərilmə tarixi: 27.02.2024**
**Çapa qəbul olunma tarixi: 29.02.2024**